MAC GEORGIA



# Əlil arabaları ilə təmin etmə və SİM şəxslərin işlə təmin olunmasına dəstək komponenti

## Köməkçi vasitələrlə təmin etmə altproqramı

2022-ci il üçün sosial reabilitasiya və uşaqlara qayğı üzrə dövlət proqramının təsdiqlənməsi haqqında

**Sosial xidmətlər agentliyinin qaynar xətti** **1505**

# Proqramın istifadəçisi kimdir?



Əlil arabasına ehtiyacı olan sağlamlıq imkanları məhdud (SİM) şəxs



Əlil arabasına ehtiyacı olan SiM uşaq

# Proqramdan istifadə etmək üçün lazımdır:

- Qəyyumluq və Himayəçilik orqanının adına yazılmış ərizə, bu ərizə proqramdan istifadə etmək istəyən şəxs, həmçinin onun qanuni nümayəndəsi tərəfindən təqdim edilə bilər. Ərizə yaşayış yeri üzrə Qəyyumluq və Himayəçilik orqanının rayon şöbəsinə verilə bilər;
- Proqramdan istifadəçisinin şəxsiyyət vəsiqəsinin surəti (18 yaşına çatmamış şəxs olduqda doğum haqqında şəhadətnamənin surəti);
- Proqram istifadəçisinin qanuni nümayəndəsinin şəxsiyyətini təsdiq edən sənədin (şəxsiyyət vəsiqəsi və ya pasportun) surəti, himayədarlıq olduğu halda isə himayədarlıq müqaviləsi
- Sağlamlıq imkanları məhdud şəxsin statusunu təsdiq edən sənəd və onun surəti ( təqaüd vəsiqəsi); ;
- Mexanik əlil arabası üçün müraciət edildikdə - N IV-100 / a forması tibbi sənədlər əsasında yardım verilə bilər.
- Tibbi Sosial Ekspertiza Müayinəsi Aktı - Forma N IV-50/2. Bu forma sağlamlıq imkanları məhdud olan şəxsin statusunu müəyyən etmək üçün müvafiq hüquqa malik olan tibb müəssisəsindən əldə edilə bilər
- Veteran statusunu təsdiq edən sənəd və ya arayış (belə sənəd varsa)

***Qeyd: Proqrama qoşulduqdan sonra siz Qəyyumluq və Himayəçilik orqanından proqramdan istifadə üçün vauçer alacaqsınız.Vauçerdən istifadə etmə şərtləri ilə yanında verilən məktubda tanış olacaqsınız.***

# Mexanik əlil arabası və pediatrik araba olan zaman 100% vauçer maliyyələşdirməsindən kim faydalanır??

- Sağlamlıq imkanları məhdud uşaqlar;
- Xüsusiləşdirilmiş gecə-gündüz müəssisələrində tam dövlət təminatında yaşayan istifadəçilər;
- “Müharibə və hərbi veteranlar haqqında Gürcüstan Qanununun 11 və 12-ci maddələri ilə müəyyən edilmiş şəxslər:
- Penitensiar müəssisələrdə olan şəxslər;
- Reytinq balı 120.000-dən çox olmayan aztəminatlı ailələr;
- Bütün digər istifadəçilər əlil arabasının dəyərinin 90%-i qədər maliyyələşdiriləcəklər.

# Əlil arabasına ehtiyacı olan istifadəçilər vauçer limitinin 100%-i daxilində maliyyələşdiriləcəklər

## Xidmət göstərmə standartları

Əlil arabalarının istifadəçilərə verilməsi və oturacağın eninə, arxa dayağın hündürlüyünə, ayağın vəziyyətinə görə olaraq fərdi ehtiyaclara uyğun tənzimlənməsi;

Zəruri hallarda- əlil arabaları ilə birlikdə zədələnmələrdən qorunmaq üçün xüsusi yastıqların verilməsi;

Əlil arabası ilə xüsusi təzyiqi azaltan yastığın verilməsi (bütün növ əlil arabaları komfort tipli yastıqla, zəruri hallarda isə təzyiqi azaldan yastıqla müşayiət olunmalıdır);

Lazım gələrsə,mexaniki əlil arabası ilə birlikdə tutacaqlarla təmin etmək;;

Əlil arabalarından istifadə ilə bağlı məsləhət və texniki xidmətlərin göstərilməsi;;

Ən azı 36 ay zəmanət xidməti (elektrikli əlil arabasının, akkumulyatorun zəmanət müddəti 24 aydır)

Zəmanət xidmətinin müddəti bitənə qədər verilmiş əlil arabası xarab olduqda (buna istifadəçi səbəb olmadıqda), zəmanət xidmətinin göstərilməsi üçün müraciət edildikdən sonra 7 təqvim günü ərzində təmir edilə bilməzsə, onun pulsuz dəyişdirilməsi;;

Mexanik əlil arabası üçün vauçerin maliyyələşdirilmə limiti 760 laridir

Elektrikli əlil arabası üçün vauçerin maliyyələşdirilmə limiti 5053 laridir

Orta və yüksək uyğunluqlu uşaq əlil arabası üçün vauçerin maliyyələşdirilmə limiti- 2650 lari

## Orta və yüksək uyğunluqlu uşaq əlil arabası olduqda:

- Uşaq arabasının uyğun növünün, modelinin və ölçüsünün seçilməsi;;
- Poza tutucularının təyini, seçilməsi və formalaşdırılması/hazırlanması, əlil arabasına quraşdırılması, tənzimlənməsi;;
- Yastığın uyğun formasının müəyyən edilməsi, formalaşdırılması, tənzimlənməsi;
- Araba istifadəçiləri üçün yaşayış yerinə çatdırılma, və ya xüsusi hallarda-evin yanına, üzbəüz görüşərək tənzimləmək;
- Əlil arabası istifadəçisi və/və ya onun qanuni nümayəndəsi üçün əlil arabasından istifadə və ona qulluq üzrə təlim;

## Elektrikli əlil arabası olduqda::

- Əlil arabasının fərdi ehtiyaclara uyğun tənzimlənməsi və yaşayış yerinə təhvil verilməsi;
- Çanaq və yan tutacaqlarının, çiyin kəmərlərinin, ayaq kəmərlərinin, ayaq biləyinin, stolun və qoltuqların quraşdırılması. İdarəetmə paneli istifadəçinin qabiliyyətinə və ehtiyaclarına uyğun qurulmalıdır;
- Əlil arabası üzrə təlimin keçirilməsi və əlil arabası üzrə təlimatın istifadəçiyə və ya onun qanuni nümayəndəsinə təhvil verilməsi;;
- Araba qatlanan olmalıdır və onun kütləsi 45 kq-dan çox olmamalıdır;;
- Mühərrikin gücü ən azı 180 Vt olmalıdır;;
- Yük çəkisi 110 kq-dan az olmamalıdır;
- Reabilitasiya proqramı çərçivəsində adambaşına yalnız bir mexaniki və ya elektrik əlil arabası verilir;

# Qeydiyyat diaqramı

**IV-100/a**

**Tibbi forma 100 almaq** üçün qeydiyyatda olduğunuz yerin pediatrına müraciət edin, o sizi həkim-ekspertə yönləndirəcək. Tibbi forma götürmək prosedurdan və müvafiq sığorta paketindən asılı olaraq bəzi hallarda pulsuz ola bilər.

**IV-50/4**

Təqaüd vəsiqəsi, **sağlamlıq imkanları məhdud statusu,** tibbi ekspertiza keçirmə hüququ olan tibb müəssisələri tərəfindən verilir. Ən yaxın tibb müəssisəsinin ünvanını öyrənmək üçün 111 nömrəli pulsuz uşaq dəstəyi qaynar xəttinə zəng edin

**IV-50/2**

**Forma IV-50/2** sağlamlıq imkanları məhdud şəxsin statusu haqqında arayışın verildiyi tibb müəssisəsi tərəfindən verilir. Qeyd olunan formada əlil arabası ehtiyacı göstəriləcəkdir

**Vauçer**

Sadalanan formaları hazırladıqdan sonra proqramda nəzərdə tutulmuş digər sənədlərlə birlikdə **İnsan Alveri Qurbanlarına Yardım üzrə Dövlət Agentliyinə** + (995 32) 2 39 53 11 müraciət edin. Vauçer üçün ərizə yerində yazılır.

# Tez-tez verilən suallar:

1. **Proqramı həyata keçirən kimdir?**

Pulsuz uşaqlara yardım qaynar xətti - 111

Onlayn platforma: https://www.sheaghe.ge/ka

Qaynar xətt: 0 800 900 902

---

2. **Uşağım üçün əlil arabasını uyğunlaşdırmaq lazımdır, kimə müraciət edim?**

Pulsuz uşaqlara yardım qaynar xətti - 111

Onlayn platforma: https://www.sheaghe.ge/ka

Qaynar xətt: 0 800 900 902

---

3. **Yaşadığım ərazidə uşağıma status almaq üçün hansı tibb müəssisəsinə müraciət etməliyəm**

Pulsuz uşaqlara yardım qaynar xətti - 111

İnsan Alveri Qurbanlarına Yardım üzrə Dövlət Agentliyininin

xətti+ (995 32) 2 39 53 11

Onlayn platforma: https://www.sheaghe.ge/ka

Qaynar xətt: 0 800 900 902

---

4. **Əlil arabasını aldıqdan sonra, lazım gələrsə, hansı ehtiyat hissələrini pulsuz dəyişə biləərəm?**

İnsan Alveri Qurbanlarına Yardım üzrə Dövlət Agentliyininin

xətti+ (995 32) 2 39 53 11

---

**5. Yeni əlil arabası üçün nə qədər vaxtdan bir müraciət edə bilərəm?**

Pulsuz uşaqlara yardım qaynar xətti - 111

İnsan Alveri Qurbanlarına Yardım üzrə Dövlət Agentliyininin

xətti+ (995 32) 2 39 53 11

---

**6. Proqramın təqdim etdiyi vauçer gecikdirildikdə və ya vauçerdə göstərilən xidmətlər alınmadıqda kimə müraciət edə bilərəm?**

Pulsuz uşaqlara yardım qaynar xətti - 111

İnsan Alveri Qurbanlarına Yardım üzrə Dövlət Agentliyininin

xətti+ (995 32) 2 39 53 11

Gürcüstanın Xalq Müdafiyəçisinin qaynar xətti: 14 81

---

MAC GEORGIA

QKHŞ “Mac” 2008-ci ildə əsası qoyulan qeyri- hökumət təşkilatıdır. Təşkilatın məqsədi sağlamlıq imkanları məhdud olan uşaqlara, yetkinlərə və onların ailələrinə kömək etməkdir.

Kavsadze küçəsi N3, Tiflis 0179

+995 32 197 378
Ödənişsiz qaynar xətt: 0 801 200 202